**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2026.1.100**

# NAXÇIVANIN ANTİK DÖVR MƏDƏNİYYƏTİNİN ÖYRƏNİLMƏSİNDƏ II XƏLƏC ABİDƏSİNİN ƏHƏMİYYƏTİ

# THE SIGNIFICANCE OF THE II KHALAJ SETTLEMENT IN THE STUDY OF NAKHCHIVAN'S CLASSICAL PERIOD CULTURE

**Zeynəb QULİYEVA***

## XÜLASƏ

Məqalədə Azərbaycanın Antik dövr mədəniyyəti Naxçıvan abidələri timsalında araşdırılmışdır. Məqsəd Naxçıvan diyarında Antik dövrlə bağlı yeni tədqiqatlara diqqət çəkmək, yeni tapıntıların əhəmiyyətini üzə çıxarmaqdır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisində Antik dövrə aid maddi-mədəniyyət nümunələrinin aşkar olunduğu 30 abidənin adı müəyyənləşdirilmişdir. Qeyd olunmuşdur ki, onlardan beşi müstəqillikdən əvvəlki dövrdə kəşfiyyat tədqiqatları ilə öyrənilmişdir. Sonrakı dövrdə daha 3 abidə bu siyahıya əlavə edilmişdir. Bu abidələr içərisində II Xələc yaşayış yeri xüsusi əhəmiyyət kəsb edir. Müəyyən edilmişdir ki, bu abidənin stratiqrafiyası Naxçıvanın Son Antik dövr mədəniyyətinin öyrənilməsində yeni perspektivlər açır.

**Açar sözlər:** *Antik dövr mədəniyyəti, Qafqaz Albaniyası, Naxçıvan, II Xələc, stratiqrafiya.*

## ABSTRACT

This article investigates the culture of the Classical period in Azerbaijan through the monuments of Nakhchivan. The aim is to draw attention to new research on the Classical period in the Nakhchivan region and to highlight the significance of recent discoveries. Thirty monuments containing material culture remains from the Classical period have been identified on the territory of the Nakhchivan Autonomous Republic of Azerbaijan. It is noted that five of these were studied through exploratory research prior to independence. In the subsequent period, three more monuments were added to this list. Among these sites, the II Khalaj settlement holds particular importance. The stratigraphy of this monument opens new perspectives for the study of the Late Classical period culture of Nakhchivan.

**Keywords:** Classical period culture, Caucasian Albania, Nakhchivan, II Khalaj, stratigraphy.

## GİRİŞ

Antik dövr şəhər mədəniyyətinin siyasi və iqtisadi güc mərkəzlərinin sintezi şəklində hakim mövqe qazandığı, fəlsəfi və hərbi təsirlərin genişləndiyi, eyni zamanda yüksək sənət əsərlərinin ortaya çıxması ilə müşayiət olunan mürəkkəb, ziddiyyətli olduğu qədər də müəmmalarla dolu bir dövr olaraq, tədqiqat aktuallığını hər zaman qoruyub saxlayır.

Azərbaycan tarixi-coğrafiyasında Atropatena, Albaniya dövlətlərinin mövcudluğu, əlaqələri, hərbi hərəkətlilik istiqamətlərinin müəyyənləşdirilməsi baxımından bu dövr xüsusi əhəmiyyət daşıyır. Bu dövrlə bağlı Qəbələ, Bərdə, Ağcabədi, Mollaisaqlı, Qaracəmirli, Qalatəpə kimi onlarla Antik dövr şəhər-məskənləri dövrün tədqiqatçıları tərəfindən öyrənilmiş və elmi dövriyyəyə daxil edil-

* AMEA Naxçıvan Bölməsi, Naxçıvan Müəllimlər İnstitutu, e-mail: zeynebguliyeva@outlook.com
ORCİD: 0000-0001-8282-5898

mişdir. Qafqaz Albaniyasının Atropatrna ilə münasibətlərinin həyata keçirilməsində körpü rolu oynayan Arazboyu ərazilər, xüsusilə Naxçıvan diyarındakı abidələr daha çox töhfə vermək potensialına rəğmən kifayət qədər araşdırılmamışdır. Bu səbəbdən buradakı sadəcə Antik dövrü əks etdirən abidələrin sayını dəqiq vermək çətindir. Lakin bu dövrə aid tapıntıların əldə edildiyi abidələr üzrə ilkin mənzərəni müəyyənləşdirmək mümkündür.

## NAXÇIVAN DİYARINDA ANTİK DÖVR MATERİALLARI AŞKAR OLUNMUŞ ABİDƏLƏR

Naxçıvan Muxtar Respublikası ərazisindəki abidələrin pasportlaşma qeydiyyatına əsasən onların ümumi mənzərəsini inzibati ərazi bölgüləri üzrə aşağıdakı ardıcıllıqla vermək olar. Kəngərli rayonu üzrə 10 abidədən Antik dövrə aid tapıntılar aşkar olunmuşdur (I Suzqunlar qalası, Böyükdüz nekropolu, II-III Böyükdüz nekropolları, III Böyükdüz yaşayış yeri, İydəli pir, Kürə yaşayış yeri, Qarayanlıq, Batan kənd və Yurdçu kurqanları). Şərur rayonu üzrə 10 abidədən bu dövrə aid yerüstü material toplanmışdır (I Sarıbulaq, Tamaşalı yaşayış yeri, Tamaşalı nekropolu, Ağbucaq yaşayış yeri, Sarılar y. y., Maxta nekropolu, Qalacıq, Həmzəli nekropolu, Albantəpə yaşayış yeri və Albantəpə nekropolu. Onlardan ikisində qismən tədqiqat aparılıb. Albantəpə nekropolundakı daş qutu qəbirlərdən ikisi Ə.İ.Novruzlu tərəfindən tədqiq edilib. Qəbirlərin döşəməsinə yastı daşlar qoyularaq, üst-üstə iri sal daşlarla örtüldüyü, birində qadın skeletinin olduğu müəyyən edilmiş və e.ə. II əsr-b.e. III əsrlərə aid edilmişdir. İkincisi – Albantəpə yaşayış yeri Axura kəndinin qərbindəki uzunsov formalı təpə üzərindədir. Babək rayonu üzrə 4 abidədən bu dövrə aid tapıntılar toplanıb. Qız qalası, Qoşatəpə yaşayış yeri, Karvansara nekropolu, Qoşadizə nekropolu. Naxçıvan şəhəri ərazisində III Antik Naxçıvan nekropolu, Ordubad rayonu ərazisində Bist şirəxanası yaxud Güney bağı deyilən ərazidən sözügedən dövrə aid keramika tapılmışdır.

## ARAŞDIRILMA SƏVİYYƏSİ

Ümumilikdə 30 abidənin pasport qeydiyyatından Antik dövrə aid tapıntıların əldə edildiyi məlum olur. Onlardan 5 abidənin Antik dövrə aid materialları arxeoloji qazıntı prosesində üzə çıxarılmışdır: Yurdçu nekropolları, Püsyan abidəsi, Albantəpə yaşayış yeri, Albantəpə nekropolu və III Antik Naxçıvan nekropolu. Yurdçu nekropollarında AMEA-nın müxbir üzvləri V.Əliyev və V.Baxşəliyev tərəfindən 17 qəbir açılmışdır. V.Əliyevin rəhbərlik etdiyi Naxçıvan arxeoloji ekspedisiyası Püsyan antik dövr abidəsində 1987-ci ildə kəşfiyyat xarakterli qazıntılar zamanı Yaloylutəpə, Qəbələ, şamaxı, Mingəçevir və digər abidələrin antik dövr materialları ilə oxşar tapıntılar əldə edilmişdir [Kərimova, 2017, s. 11]. Digər 3 abidə isə Ə.Novruzlu tərəfindən tədqiq edilmişdir. Onun tərəfindən Naxçıvan şəhərinin cənub hissəsindəki Köhnə qala ərazisində, 1987-ci ildə qeydə alınan III Antik Naxçıvan nekropolunda 2 küp qəbirin qalıqları öyrənilmiş, eyni zamanda çəhrayı küpə qalıqları əldə edilmişdir. Abidə III-VII əsrlərə aid edilmişdir.

XXI əsrdə bu abidələr sırasına daha iki abidə əlavə olunmuşdur. “Antik Naxçıvan” ekspedisiyası tərəfindən qeydə alınan abidələrdən Meydantəpədə Ə.Bədəlov tərəfindən aparılan qazıntılar nəticəsində bu dövrə aid tikili qalıqları, keramika nümunələri aşkar olunmuşdur. Ordubad ərazisində B.İbrahimli tərəfindən aparılan qazıntılar zamanı əldə edilən yeni tapıntılar bu baxımdan faydalı olmuşdur. Dəlmə qalasının Antik dövrdə inşa olunduğu, V-VII əsrlərdə dağıdıldığı, yalnız IX əsrdə yenidən bərpa edildiyi müəyyən edilmişdir[İbrahimli və b., 2016, 246]. Oğlanqaladan aşkar edilən sütun altlıqları və tikili qalıqları da daxil olmaqla Antik dövr Naxçıvanı haqqında tədqiqatlar bunlarla məhdudlaşırdı. Qeyd etmək lazımdır ki, Naxçıvan ərazisində Antik dövrlə bağlı abidələr aşkarlansa da [Aşurov, 1991; İbrahimli, Qədirzadə, 2011a; İbrahimli, Qədirzadə, 2011b; Bədəlov, 2017] Son Antik dövrdən Erkən Orta əsrlərə keçid mərhələsi öyrənilməmişdir. Təqdim edilən məqalədə məhz bu dövrün öyrənilməsində II Xələc abidəsinin yerini müəyyənləşdirmək, Naxçıvanın

Antik dövr mədəniyyətinin tədqiqində əhəmiyyətini üzə çıxarmaq başlıca məqsəd olaraq qarşıya qoyulmuşdur.

## NAXÇIVANDA ANTİK DÖVRƏ AİD YENİ ABİDƏ

2024-cü ildə Şərur rayonunun Xələc kəndində qeydə alınan II Xələc yaşayış yeri Antik dövrlə bağlı yeni səhifələrin üzə çıxarılmasına imkan vermişdir. Abidənin əhatə etdiyi ərazi üçbucaqlı formaya malik olub torpaq yolla ikiyə bölünmüşdür (şəkil 1).



**Şəkil 1.** II Xələc yaşayış yerinin uydu görüntüsü.

Yeni abidədə tədqiqatlar 4 qazıntı sahəsində aparılmışdır, lakin abidənin dövrü və xarakterinin müəyyənləşdirilməsi baxımından A sahəsinin tapıntıları xüsusi əhəmiyyət daşıyır. Qazıntılar zamanı yaşayış yerinin 2 mərhələdə istifadə edildiyinə dair artefaktlar aşkar olunmuşdur. Üstdən I təbəqə 30-40 sm qalınlıqda olub boz-sarı rənglidir və bəzi yerlərdə qarışıqdır. Bu təbəqə skelet qalıqları ilə təmsil olunmuş, az sayda da olsa Orta əsrlər dövrünə aid keramika fraqmentləri üzə çıxarılmışdır. Orta əsrlər dövrünün qəbirləri və Sovet dövründə tikilmiş sərhəd qurğusu bu qatın dağılmasına və mədəni təbəqələrin qarışmasına səbəb olmuşdur.

II təbəqəyə doğru torpağın rəngi qismən çəhrayıya doğru dəyişir. Bu təbəqədən (qalınlıq: 80 sm) dördkünc formalı tikili qalıqları, daş sütun altlığı, xeyli miqdarda kül və yanmış ağac qalıqları, Antik dövrə aid çoxsaylı keramika fraqmentləri üzə çıxarılmışdır. Bu təbəqə əvvəlkinə nisbətən daha sağlam qaldığından memarlıq quruluşu, keramikanın xüsusiyyətlərini aydın şəkildə izləməyə imkan verir.

## MEMARLIQ QURULUŞU

Abidədən 4 binaya aid tikili qalıqları aşkar olunmuşdur. Birinci bina (A-023) dördkünc formalı olmaqla, interyerinin ölçüləri 6×2,2 metrə çatır. Divarının qalınlığı 34-35 sm-dir. Onun şimal divarı digər tikilinin divarı ilə bitişik haldadır. Ümumilikdə qalınlığı 55-60 sm arasında dəyişən divarın bir hissəsi sarı rəngli kərpicdən tikilmiş (18-20 sm), digər hissəsi açıq yaşıl rəngli möhrədən

olmaqla çəhrayı rəngli suvaq çəkilmişdir (şəkil 2). Sağlam qalmış hissəsinin hündürlüyü 52 sm-dir. İçərisinə 1,5 sm qalınlıqda çəkilmiş suvaq yanmanın təsirindən qaralmışdır.

İkinci binaya aid divarın (A-030) 9,2 metr uzunluqda olan hissəsi A sahəsində aşkar olunmuş, qalan hissəsinin üzə çıxarılması üçün A sahəsi 1 metr genişləndirilmişdir. Divarın ortasında yaradılmış 61 sm enində küllə dolu olan boşluq qazılarkən daş sütun altlığı üzə çıxarılmışdır. Sütun altlığı iki hissədən ibarətdir. Aşağı hissəsi dördkünc formada (h = 22 sm, yuxarısı dairəvi formada (h = 62 sm) yonulmuşdur. Sütun altlığı ilə kəsilən boşluqdan sonra 4,8 metr davam edən divar ikinci sütun yeri ilə kəsilmişdir. Ölçüsünə və dördkünc formasına görə birinci sütun yeri ilə eyni olsa da, burada daş sütun altlığı aşkarlanmamışdır. Divarın qazıntı sahəsinin kəsiyinə doğru davam etməsi onun iri ölçülü ictimai tikiliyə aid olduğunu göstərir.

Üçüncü binaya aid tikili qalığı A sahəsinin cənub-şərq hissəsində qeydə alınmışdır. A-023 kodlu I binanın şərq divarından 1 metr ara məsafəsində yerləşən divarın az qismi üzə çıxarılmış, qalan hissəsi D sahəsinin kəsiyi altında qalmışdır. Dördüncü binanın qalığı D sahəsində qeydə alınmışdır. D-020 kodlu divar (uz: 1,5 m) yer səthindən 60 sm dərinlikdə olub, interyerindəki suvaq qırmızı-qəhvəyi rənglidir. Tikilinin içərisi qazılarkən qızarmış torpaq və kül qalıqları və xeyli miqdarda keramika üzə çıxarılmışdır.




**Şəkil 2.** II Xələc yaşayış yerində açılmış A və C qazıntı sahələri (2024).

## KERAMİKANIN XÜSUSİYYƏTİ

Yaşayış yerinin keramika məmulatı içərisində çəhrayı olanlar üstünlük təşkil edir, boz-qara rəngli nümunələr az saydadır. Bəzilərinin səthinə qırmızı boya çəkilmişdir. Onların tərkibinə narın qum qatılmış və yaxşı bişirilmişdir. Az bir qisminin kəsiyində boz təbəqə izlənilir. Onlar iri ölçülü qabların fraqmentlərindən ibarətdir. Əksəriyyəti kiçik ölçülü qablarla təmsil olunmuşdur.

Tipoloji olaraq müxtəlif çeşidlərlə təmsil olunan qabların özünəməxsus dulusçuluq ənənəsi ağız profillərində daha aydın nəzərə çarpır. İkinci qrup qabların bir qisminin ağzı xaricə doğru meyilləndirilərək, kənarı köbəşəkilli qalınlaşdırılmışdır. Belə qab fraqmentləri yaşayış yerinin üst təbəqəsindən əldə edilmişdir (II Xələc-24, C-004,4; C-005,2). Bu tip kasaların bir qisminin ağız kənarı yanlara doğru üfüqi şəkildə genişləndirilmişdir (şəkil 7, 2). Onlar sarı-çəhrayı, qismən də qəhvəyi rəngli nümunələrlə təmsil olunmuşdur (II Xələc-24, C-021,2; A-044; B-005; A-046).

Kiçik ölçülü qabların bir qismi “S” şəkilli profilə malik olub gövdə hissəsində karinasiyalıdır. Kiçik ölçülü olan belə qabların bəzisinin ağız kənarına hər iki üzdən qırmızı boya çəkilmişdir (II Xələc-24, C-004,3; C-005; C-005,2; D-016). Çəhrayı rəngli, təmiz tərkibli gildən hazırlanan belə nümunələr azdır. Dördüncü qrupa aid olan nümunələr gövdəsindən oturacağa doğru qalınlaşır.

Küpələrdə divar qalınlığının ağız hissəyə doğru artması izlənir (II Xələc- 24, A-01, A-007, A-045, D-002). Bəzi nümunələrdə belə qalınlaşma ağız kənarının xaricə doğrı çəpinə kəsilməsi ilə tamamlanır (şəkil 7, 6). Belə qablar çəhrayı gildən hazırlanmışdır (II Xələc-24, D-001, C-004,2, C-016, C-020; A-29,4). Bu tip profilli olmayan sadə nümunələr azdır (II Xələc-24, A-031, D-016) və boz rənglidir. Keramika məmulatı içərisində qulp fraqmentlərinə də rastlanmışdır.

## DİSKUSSİYA

II Xələc yaşayış yerində tikililər düzbucaqlı plana malikdir. Əsas binanın ölçüsü bəlli olmasa da, onun yanındakı tikilinin 2 metr enində olan uzunsov binaya aid olduğu müəyyənləşdirilmişdir. Qazıntı sahəsi boyunca davam edən əsas tikilinin divarları ilə müqayisədə digər tikili qalıqları ensizdir. Onun digər fərqi bir-birindən 4,8 m məsafədə yerləşən dördkünc formalı sütun boşluqlarının olmasıdır. Sütun altlıqları Antik dövrdə ictimai xarakterli tikililərdə geniş istifadə edilmişdir. Bu fakt II Xələcdəki iri həcmli tikilini şəxsi evlərdən çox ictimai xarakterli binalarla əlaqələndirməyə imkan verir. Divarların çəhrayı rəngli gil qatı ilə səliqəli suvanması, həmçinin açıq yaşıl rəngli məhlulla suvanmış döşəmənin sağlam şəkildə üzə çıxarılması da burada xüsusi əhəmiyyətli memarlıq olduğunu göstərir. Naxçıvan ərazisindəki Sumbatan-Dizədə, Oğlanqalanın II dövrünə aid təbəqəsində, Meydantəpədə aşkar edilmiş ictimai məqsədli tikililər qədim qala-şəhər yerlərinin qalıqları kimi dəyərləndirilmiş, onların eramızın ilk əsrlərində dağıldığı və tədricən öz əvvəlki təyinatını itirdiyi qeyd olunur [İbrahimli, 2018; Ristvet et all., 2012; Bədəlov, 2027]. Belə idarəçilik mərkəzlərinin təxminən eyni dövrdə dağıntıya məruz qalması diqqət çəkir. Biz II Xələcin ictimai binalarında izlənən güclü yanğın timsalında da eyni mənzərə ilə qarşılaşırıq. Bu tarix Sasani işğalları, Atropatena və Albaniyanın onlara qarşı mübarizəsi dövrünə düşür. Əldə edilən arxeoloji materialların təhlili göstərir ki, Naxçıvan bu mübarizənin istinadlarından biri olmuşdur.

Sual yaradan məsələlərdən biri bu tip idarəçilik mərkəzlərinin nə vaxtdan fəaliyyətə başlamaları ilə bağlıdır. Belə ictimai məqsədli tikililər Azərbaycanın digər bölgələrindən də məlumdur. Qəbələ Antik şəhər yerində qeydə alınmış tikililərin bir qismi e. ə. I – b. e. I, bəzisi e. ə. III-II əsrlərlə tarixləndirilmişdir [Babayev və d., 2017, s. 194]. Onlar oval formalıdır və daş düzümlərindən ibarət səkiyə malikdir. Bu baxımdan II Xələcdəki tikililərdən fərqlənirlər. Lakin buradakı dördkünc formalı binanın tikintisində işlədilmiş kərpiclər, həmçinin onların birləşdirilməsində istifadə edilən memarlıq üsuluna Mil-Qarabağ bölgəsinin Antik dövr tikililərindən məlumdur. E. ə. III-I əsrlərə aid edilən Qalatəpənin keramika repertuarında yer tutan oval oturacaqlı kasalar [Əliyev və d., 2017, şək. 25] II Xələc qabları ilə oxşardır. Buradan tapılan qulplar da müqayisə üçün əhəmiyyət daşıyır. Onlar Nərgiztəpənin çubuqvarı və lentşəkilli qulpları ilə analogiya yaradır [Əliyev və d., 2017b, s. 21]. Tədqiqatçılar qabların ağız kənarını çiyin hissəsi ilə birləşdirən çubuqvarı qulpları e. ə. III-I əsrlərə aid edilən Yaloylutəpə mədəniyyəti ilə əlaqələndirirlər [Əliyev, Əliyev, 2017, s. 251]. I Poylunun e. ə. IV – b. e. III əsri arasındakı dövrə aid edilən Antik dövr keramikasının bəzi elementləri, xüsusilə, ağız kənarı xaricdən köbəli kasalar, çubuqşəkilli qulplar [Müseyibli, Nəcəfov, 2021, şəkil 1] II Xələcdə geniş yayılmış, novalçalı fraqment isə bir nümunə ilə təmsil olunmuşdur. II Xələcin tikililəri dördkünc memarlıq planı baxımından Nərgiztəpə ilə də müqayisə edilə bilər [Əliyev, İbrahimli, Əliyeva, 2017, şəkil 6]. Lakin kərpiclərin quruluşu, suvanma texnikası ilə fərqlənir. Uzunsov düzbucaqlı plan Oğlanqalanın II mərhələsinin memarlığında da izlənilir, onların tikintisində daşdan geniş istifadə edildiyi halda II Xələcdə daş material yalnız sütun altlığı ilə təmsil olunmuşdur. Oğlanqalanın sütun altlıqları II Xələcdəki nümunədən fərqli olaraq oturacaq hissədə də dəyirmidir [Ristvet et all., 2012, fig. 13]. II Xələcin ağzı xaricə doğru qalınlaşdırılmış kasa tipli qablarının bir qismi tipoloji baxımdan Oğlan-

qalanın Erkən Dəmir dövrünə aid edilən [Baxşəliyev, 2002, şəkil 39, 1-11] qabları ilə analogiya yaradır. Qabların digər qismi özünəməxsus elementləri ilə fərqlənir. Yeni elementlər daha çox Antik dövrdən Erkən Orta əsrlərə keçid dövrünü əks etdirir. II Xələcdən götürülən kömür analizlərinin təhlili də b. e. II-III əsrlərini (b. e. 118-280) göstərməklə bu tarixi təsdiqləyir. II Xələc məhz bu dövrün arxeoloji qazıntılara cəlb edilən və mütləq xronologiyası bəlli olan ilk abidəsidir. Abidənin yerüstü tapıntıları içərisində müxtəlif dövrlərə aid o cümlədən, Son Eneolit dövrünə aid nümunələr əldə edildiyini [Quliyeva, 2024a, şəkil 3, 1-2], eləcə də Dəmir dövrünə aid keramika nümunələrini (şəkil 6,1) nəzərə alaraq hesab edirik ki, gələcək tədqiqatların bu tarixi bir qədər də qədimləşdirəcəyi də istisna deyil.

## NƏTİCƏ

Naxçıvan ərazisində Antik dövrə aid maddi mədəniyyət nümunələri aşkar edilsə də onun əvvəlki və sonrakı dövrlərlə genetik əlaqələrini üzə çıxarmaq üçün yetərli tapıntılar əldə edilməmişdir. II Xələc yaşayış yerində izlənən stratiqrafik ardıcıllıq bu əlaqələrin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Burada 2024-cü ildə aparılan arxeoloji qazıntılar yaşayış yerinin 2 mərhələdə istifadə edildiyini göstərmişdir. Bu mərhələləri əks etdirən qatlar şərti olaraq I və II təbəqə adlandırılmışdır. Üst (I) təbəqədə skeletlərin çoxluğu və keramikanın əlamətləri buranın Erkən orta əsrlər dövründə yaşayış yeri kimi əhəmiyyətini itirdiyini və qəbristanlığa çevrildiyini göstərir. II təbəqə aşkar edilən tikili qalıqları, keramikanın xüsusiyyətlərinə görə Antik dövrün son mərhələsini əks etdirir. C14 analizləri də nisbi xronologiyanı təsdiqləmişdir. Araşdırmalara əsasən deyə bilərik ki, II Xələc Azərbaycanın Antik və Erkən Orta əsrlər dövrü, onlar arasındakı keçid prosesinin öyrənilməsinə töhfə verə biləcək yeni abidədir. Digər tərəfdən Naxçıvanın Antik dövr mədəniyyətinin özünəməxsus xüsusiyyətlərinin, xüsusilə memarlıq, dulusçuluq ənənələrinin üzə çıxarılmasında zəngin maddi-mədəniyyət potensialına malikdir. Bu abidənin geniş şəkildə tədqiqinə ciddi ehtiyac var. Burada aparılacaq yeni arxeoloji tədqiqatlar Qafqaz Albaniyasının Antik dövr şəhərlərinin Naxçıvandakı izlərini ortaya çıxarmaqla yanaşı, bu diyarda Antik dövr mədəniyyətinin mərhələlər üzrə inkişafı və genetik bağlarını izləmək üçün yeni perspektivlər açacaqdır.

## ƏDƏBİYYAT


Aşurov, S.H. & Bədəlov, Ə. (1991). Şərurun antik dövr abidələri. *Azərbaycan tarixi problemləri üzrə gənc tədqiqatçıların birinci Respublika konfransının məruzələri*, s. 80-82.

Babayev, İ.A. & Əhmədov, Q.M. (1981). *Qəbələ*. Elm.

Babayev, İ.A., Nəcəfova, İ.M., Heydərova, Ü.R. & Mustafayev, L.X. (2017). Qəbələ arxeoloji ekspedisiyası Antik Qəbələ dəstəsinin çöl-tədqiqat işləri haqqında. *Azərbaycanda arxeoloji tədqiqatlar – 2015-2016*, 194-203. Arxeologiya və Etnoqrafiya İnstitutu.

Baxşəliyev, V.B. (2002). *Naxçıvanın Erkən Dəmir dovru mədəniyyəti*. Elm.

Bədəlov, Ə.H. (2017). 2015-2016-cı illərdə Meydantəpə yaşayış yerində arxeoloji tədqiqatlar. *Azərbaycanda arxeoloji tədqiqatlar – 2015-2016,* 215-220. Arxeologiya və Etnoqrafiya İnstitutu.

Əliyev, T.R. & Əliyev, V.T. (2017). Mil-Qarabağ arxeoloji ekspedisiyasının Nərgiztəpə dəstəsinin 2015-ci il tədqiqatları. *Azərbaycanda arxeoloji tədqiqatlar – 2015-2016*, 250-254. Arxeologiya və Etnoqrafiya İnstitutu.

Əliyev, T.R., İbrahimli, B.İ. & Əliyeva, G.İ. (2017). *Qarabağda Nərgiztəpə abidələr kompleksi*. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu.

Əliyev, T.R., Babayev, F.İ., Əliyeva, G.İ. & Əliyev, V.T.(b) (2017). Mil-Qarabağ ekspedisiyasının Qalatəpə dəstəsinin 2015-2016-cı illərdə apardığı çöl tədqiqatları. *Azərbaycanda arxeoloji tədqiqatlar – 2015-2016*, 225-233. Arxeologiya və Etnoqrafiya İnstitutu.

İbrahimli, B. & Qədirzadə, Q. (2011a). Sumbatan-Dizə yaşayış yerində arxeoloji tədqiqatlar (Naxçıvan MR, Ordubad rayonu). *Azərbaycanda arxeoloji tədqiqatlar 2010*, 135-142. Arxeologiya və Etnoqrafiya İnstitutu.

İbrahimli, B. & Qədirzadə, Q. (2011b). 2010-cu ildə Rəsul Dərəsində aparılmış arxeoloji tədqiqatlar (Naxçıvan MR, Ordubad rayonu). *Azərbaycanda arxeoloji tədqiqatlar 2010*, 152-158. Arxeologiya və Etnoqrafiya İnstitutu.

İbrahimli, B. (2013). *Naxçıvanın qədim şəhərləri: Sumbatan-Dizə.* http://qedim.nakhchivan.az/index.php.

İbrahimli, B.İ., Səfərli, F.Y., Qədirzadə, Q.İ., İbrahimova, C.F. & Həsənova, L.N. (2017). Dəlmə qalası ətrafında arxeoloji qazıntılar. *Azərbaycanda arxeoloji tədqiqatlar – 2015-2016*, 246-249. Arxeologiya və Etnoqrafiya İnstitutu.

Müseyibli, N. & Nəcəfov, Ş. (2021). Ağstafa Antik dövr abidələri. *Qafqaz Albaniyasının etno-mədəni irsi (məqalələr toplusu)*, 2, 46-56.

Mustafayev, L. & Səfərova, Ü. (2022). Qafqaz Albaniyasının maddi mədəniyyətinin öyrənilməsində Qəbələ arxeoloji qazıntılarının rolu. *Azərbaycan arxeologiyası*, 2 (25), 63-79.

Kərimova, K.A. (2017). *Şimali Azərbaycanda dulusçuluq məmulatı istehsalının inkişaf mərhələləri (Antik və ilk orta əsrlər).* https://aak.gov.az/upload/dissertasion/tarix/tar_n_kka_30_06_17.pdf.

Quliyeva, Z. (2024 a). Xələc abidələri: yerüstü tapıntılar və perspektivlər. *Şərqin qapısı – qədim diyar (may 2024-cü ildə keçirilmiş konfransın materialları),* II kitab, 89-96. Əcəmi.

Quliyeva, Z. (2024b). I Xələc yaşayış yerinin Erkən Dəmir dövrü təbəqəsi. *AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, İctimai və humanitar elmlər*, 2, 107-113.

Quliyeva, Z., Əliyev S., Tağıyev Ə., İsmayılova A., Rzayeva R., Əliyeva N., Abbaslı H. & Zalova Ş. (2024). *I və II Xələc abidələrində 2024-cü ildə aparılmış arxeoloji tədqiqatların hesabatı*. AMEA Naxçıvan Bölməsinin arxivi.

Ristvet, L., Gopnik, H., Bakhshaliyev, V., Hannan, L., Ashurov, S. & Bryant, R. (2012). On the Edge of Empire: 2008-2009 Excavations at Oğlanqala Azerbaijan. *American Journal of Archaeology*, 116/2, 321-362.

Гулиева, З. (2022). К проблеме преобразования культур позднего энеолита в Нахчыване (по материалам исследований поселения Йени йол). *Археология Азербайджана*, 2, 48-59.

Мамедова, Ф. (1986). *Политическая история и историческая география Кавказской Албании: (III в. до н.э.-VIII в. н.э.).* Элм.

Бабаев, И.А. (1990). *Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э.* Элм.

Исмизаде, О. (1962). Кабала – столица древней Кавказской Албании. *Вопросы истории Кавказской Албании*, 54-75. Издательство АН Аз. ССР.

**Daxilolma tarixi: İlkin variant 23.01.2026**
**Son variant 16.02.2026**